https://doi.org/10.59849/3006-2403.2023.9.123
UOT 82-1. 512. 162

*Xəyalə Rasim qızı Hüseynova*
*AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi*
*Gəncə ş. H.Əliyev pr., 419*
*E-mail: x_genceli@yahoo.com*

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Din və dövlət – Azərbaycan Respublikasında əsrlərdən bəri iki ayrılmayan, bir-biri ilə güclənən, bir-birinə arxa-dayaq olan iki ən mühüm faktordur. Çünki din ilə dövlət arasında əbədi bir bağlılıq mövcuddur. Bu iki faktoru birlikdə idarə etmək, birlikdə tənzimləmək hər liderin işi deyil. Lakin Heydər Əlirza oğlu Əliyev bunu bacardı. Ölkəmizdə dini-etiqad azadlığının təmin edilməsi, tolerantlıq ənənələri və milli-mənəvi dəyərlərimizin qorunması Ulu öndərin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi.*

*Açar sözlər:* Heydər Əliyev, ulu öndər, milli-mənəvi dəyərlər, Qurani-Kərim, din

Azərbaycan Respublikası İslam ölkəsidir, eyni zamanda dünyəvi bir dövlətdir. Konstitusiyamıza əsasən, din dövlətdən ayrıdır və hər bir vətəndaşın dini etiqad azadlığı var. Ümummilli lider Heydər Əliyev bu haqda çıxışında bildirir: "Dövlətimiz, Azərbaycan Konstitusiyası insanlara bütün azadlıqları verərək, o cümlədən vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab edir. Konstitusiya din azadlığını, vicdan azadlığını elan etmişdir, biz isə dövlət kimi bunun təmin olunmasının qarantıyıq, bunu öz üzərimizə götürmüşük. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik. Din ilə dövlət arasında sıx əməkdaşlıq var və hesab edirik ki, Azərbaycanda İslam dini özünün gözəl mənəvi dəyərlərini Azərbaycan vətəndaşlarına aşılayaraq, Azərbaycan vətəndaşlarını İslam dininin bu gözəl mənəvi dəyərləri əsasında tərbiyələndirərək Azərbaycan cəmiyyətini mənəviyyatca daha da yüksəldəcək və insanlar bu demokratiyanı, bütün azadlıqları doğru-düzgün başa düşəcək, onlardan səmərəli istifadə edəcəklər" [1, s. 14-15].

İnsanı digər bütün canlı varlıqlardan ayıran ən mühüm xüsusiyyətlərdən biri onun dinə sahib varlıq olmasıdır. Ümumiyyətlə nə keçmişdə, nə də günümüzdə istər ibtidai, istərsə də inkişaf etmiş olsun dinsiz heç bir cəmiyyətə rast gəlinmədiyinin, dini hisslərin və yaşayışın insanların ruhunda, digər yaşayışlarında vacibliyinin, dinin cəmiyyətlərin siyasi, iqtisadi, düşüncə, kimi bir çox sahələrdə nə qədər böyük təsirə malik olduğunun şahidiyik. Ulu öndər yüksək əxlaqi keyfiyyətləri, mənəvi yetkinliyi, kamil imanı sayəsində İslam dininin sülh və mehribanlıq dini olduğunu göstərdi. "Çünki Heydər Əliyev yetişdiyi və qəlbinə qədər gedib çıxdığı sovet sistemini analiz etmiş və bu sistemdə yaşayan insanların mənəvi aclığını görə bilmişdi" [2, s. 57].

"Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın İslam mədəniyyəti, islam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və digər bir çox şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və İslam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik." [1, s. 34-35]. Bu kontekstdən yanaşaraq Ulu öndərin söz ustadlarımıza verdiyi diqqət, eyni zamanda milli-mənəvi dəyərlərimizə qayğısının göstəricisidir.

Heydər Əliyev sözün əsil mənasında hər yönü ilə örnək bir abidə insan idi! O dərin zəkası, geniş idarəçilik təcrübəsi, uzaqgörən siyasətinə görə dövlət-din arasında yaranmış uçurumu aradan qaldırdı, dinin birləşdirici gücündən istifadə etdi.

Heydər Əliyev "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda keçirilmiş beynəlxalq konfransdakı çıxışında deyir: "Bu gün biz keçmiş tariximizə baxaraq böyük məmnuniyyətlə qeyd etməliyik ki, din çox minillik bəşər tarixində həmişə müstəsna, böyük rol oynamışdır və insanlara həmişə səadət, sülh və əmin-amanlıq gətirmişdir. İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir. İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir. Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir [1, s. 9].

Doğrudan da, İslam dini elm, mədəniyyət, maarif dinidir. Dinimiz öz mahiyyəti etibarilə digər dinlərdən üstün keyfiyyətlərə sahibdir. Bəqərə surəsinin 208-ci ayəsində buyurulduğu kimi, "Ey iman gətirənlər, bütövlüklə İslama daxil olun [İslamın bütün əmrlərini yerinə yetirin]! Şeytanın addımlarını izləməyin! Şübhəsiz ki, o sizin açıq-aydın düşməninizdir." [7, 2/ s. 208].

Ulu öndər çıxışında vurğulayır ki: "Biz İslam dininin inkişafı üçün dövlət tərəfindən lazımi tədbirlərin hamısını görəcəyik. Çünki biz yaxşı bilirik ki, İslam Azərbaycan xalqının, bütün İslam aləminə mənsub olan insanların, məxluqun ən yüksək mənəviyyat mənbəyidir" [6, s. 5]. Heydər Əliyevin də dediyi kimi, cəmiyyətimizin mədəni irsinə nəzər saldıqda, biz İslam dininin təsirini mütləq şəkildə görəcəyik.

Roma papası İoann II Pavel 2003-cü ilin mayında Bakıda olarkən demişdi: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir".Bu stabillik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür [3, s. 22].

Heydər Əliyev də düşünürdü ki, milli-dini dəyərlərə qapılaraq, onun çərçivəsindən kənara çıxmayan, yaxud ondan kənarda heç bir şeyi görməyən insanlar, alimlər xalqın inkişafına xeyir verə bilməz. Ulu öndərə görə, islam dəyərləri və milli dəyərlərlə yanaşı, ümumbəşəri dəyərlərdə çox əhəmiyyətlidir. Bu mütərəqqi proses bütün ölkələrin aparıcı işi olmalıdır.

Ümummilli lider Heydər Əliyev: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz [5].

Çünki hər bir xalqın özünəməxsus dəyərləri vardır. Milli-mənəvi dəyərlərimizin qorunması cəmiyyətimizin inkişafı ilə əlaqəlidir. İşin gözəlliyi ondadır ki, milli-mənəvi dəyərlərimizin əsasını təşkil edən meyarlar dinimizdə də öz əksini tapır. Milli-mənəvi dəyərlərimiz İslam dininin xalqımız arasında yayılması ilə daha da kamilləşdi. O cümlədən, tolerantlıq məsələsinə bu qədər səmimi yanaşmağımız da bizim milli dəyərlərimizdən qaynaqlanır və dəyərlərimizlə dinimiz bir-biri ilə vəhdət təşkil edir. Çünki inancımız bütün həyatımıza təsir edir. Eyni zamanda inancımız hərəkətlərimizə və sözlərimizə nüfuz edir.

Mərhum prezidentin də dediyi kimi, "dini-mənəvi dəyərlərdən biz müasir həyatımızın daha da genişlənməsi və inkişaf etməsi üçün istifadə etməliyik. Dini-mənəvi dəyərlər bizi geriyə çəkməməlidir, irəli aparmalıdır və mütləq belə olmalıdır. Çünki İslam dininin mənəvi dəyərləri insanları həmişə inkişafa aparmışdır, insanlara həmişə qarşıdakı uzaq və işıqlı yolu göstərmişdir və insanları daha da irəli getməyə, daha da savadlanmağa, mədəniyyətə daha da qovuşmağa müasir həyatın bütün vasitələrindən öz həyatını, öz millətinin həyatını, xalqının həyatını daha da yaxşılaşdırmaq üçün, maddi və mənəvi vəziyyətini yaxşılaşdırmaq üçün daha da səmərəli istifadə etməyə yönəldilmişdir [1, s. 13].

Heydər Əliyevin hakimiyyəti dövründə tariximizi, milli-dini ənənələrimizi əks etdirən müqəddəs yerlər, abidələr, ocaqlar təmir və bərpa edilmişdir. Bibiheybət məscidinin yerində təzə bir məscidin yaradılmasına nail olmuşdur.

"Ulu öndər Heydər Əliyev Azərbaycanda xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn kimi ölkə daxilində dindarların problemləri ilə maraqlanmış, dövlət və din münasibətlərinin tənzimlənməsində, multikulturalizm və tolerantlıq dəyərlərinin bərqərar edilməsində çox işlər görmüş, xarici siyasətdə isə İslam amilinə xüsusi diqqət yetirmişdir" [4].

Bütün bunlar Ümummilli Liderin dini-mənəvi dəyərlərin qorunub saxlanılmasına verdiyi misilsiz diqqət və qayğının təzahürüdür.

Bizim mənəvi dəyərlərimiz İslam dininin mənəvi dəyərləridir. Bu mənəvi dəyərlər cəmiyyəti düzgün istiqamətdə irəli aparıbdır. "Mən öz əqidəmə, İslam dininin mənəvi dəyərlərinə sadiq olacağam və Azərbaycanda mənəviyyatın, mənəvi dəyərlərin İslam dininin yüksək dəyərlərinin inkişaf etməsini təmin edəcəyəm" [1, s. 30]

Heydər Əliyevin apardığı uğurlu din siyasətinin, dini-əxlaqi dəyərlərin qorunmasına verdiyi dəyərin önəmi onun ən yüksək xüsusiyyətlərə malik liderlərdən biri olaraq tarixdə əbədi qalacağının əyani sübutudur. O dini, milli, mədəni, mənəvi dəyərlərin dirçəlməsi, o cümlədən, tolerant mühitin formalaşması uğrunda müstəsna xidmətləri olmuş və bu mühitin qorunub saxlanılmasına misilsiz töhfələr vermişdir. Ulu Öndər Heydər Əliyevin əvəzsiz siyasi xətti dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində yeni mərhələnin başlanğıcı olacaqdır.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq sempozium "İrşad" İslam araşdırmaları mərkəzi. Bakı: 1999.
2. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Beynəlxalq konfrans. 3-4 aprel 2007. Bakı: "Gülüstan" sarayı.
3. Rafiq Əliyev. Dini-mənəvi dəyərlərə Heydər Əliyev münasibəti. 525-ci qəzet. -2013. -8 mart. S.22.
4. Sakit Hüseynov. Heydər Əliyev və İslam həmrəyliyi. https://old.xalqqazeti.com/ az/news /politics/85322
5. Səyavuş Heydərov. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. https://scwra. gov.az/az/ view /news/ 4910/heyder-eliyev-ve-milli-menevi-deyerlerimiz
6. Heydər Əliyev. Allah yolunda hamımız bir olaq. Azərnəşr. 1993.
7. Qurani-Kərim məali / Ərəb dilindən tərcümə edənləri: Z.Bünyadov, V.Məmmədəliyev / – Bakı: İpək yolu, 2007. –604 s.


УДК 82-1. 512. 162

*Х.Р.Гусейнова*

*Гянджинское Отделение НАНА, Центр Низами Гянджеви*

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ЗАЩИТЕ НАШИХ НАЦИОНАЛЬНЫХ И МОРАЛЬНЫХ ЦЕННОСТЕЙ

*РЕЗЮМЕ*

*Ключевые слова*: Гейдар Алиев, великий лидер, национально-нравственные ценности, Священный Коран, религия

Религия и государство являются двумя неразлучнымиважнейшими факторами в Азербайджанской Республике,которые укрепляют и поддерживают друг друга на

протяжении веков. Потому что между религией и государством существует вечная связь. Не каждому лидерудано управлять этими двумя факторами и корректировать их вместе. Но Гейдар Алирза оглы Алиев справлялся сполна. Обеспечение свободы вероисповедания в нашей стране, традиций толерантности и защиты наших национально-нравственных ценностей стало одним из основных направлений государственной политики великого лидера.

UDC 82-1. 512. 162

*Kh.R.Huseynova*
*Ganja Branch of ANAS, Nizami Ganjavi Center*

THE ROLE OF HEYDAR ALIYEV IN PROTECTING OUR NATIONAL AND MORAL VALUES

*SUMMARY*

*Key words*: Heydar Aliyev, great leader, national and moral values, Holy Quran, religion

Religion and the state are two inseparable, most important factors in the Republic of Azerbaijan, which have strengthened and supported each other for centuries. Because there is an eternal connection between religion and state. Not every leader is equipped to manage these two factors and adjust them together. But Heydar Alirza oglu Aliyev coped with it in full. Ensuring freedom of religion in our country, traditions of tolerance and protection of our national and moral values has become one of the main directions of the state policy of the great leader.

***Daxil oldu: 24.09.2023-cü il***

https://doi.org/10.59849/3006-2403.2023.9.127
UOT 82-1. 512. 162

*Vüsalə Cəbrayıl qızı Hüseynova*
*AMEA Gəncə Bölməsi*
*Elmi Kitabxanasının müdiri*
*Gəncə ş. H.Əliyev pr., 419*
*E-mail: vusala.huseyn.76@bk.ru*

# NİZAMİ GƏNCƏVİNİN İRSİ ŞƏRQ ƏDƏBİYYATŞÜNASLIĞINDA

*Məqalədə, qeyd olunmuşdur ki, Şərq xalqlarının ədəbiyyatı uzun əsrlərdən bəri Nizaminin yaradıcılığının böyük təsirini hiss etmiş, Şərqin ən böyük şairləri Nizamidən poetik sənətkarlığın sirlərini öyrənmiş, onun "Xəmsə"sindən mövzular seçib götürmüş, şairin əsərlərindəki poetik obrazlardan, təşbih və istiarələrdən, yazıçının fəlsəfi fikirlərindən geniş surətdə istifadə etmişlər. Bu isə göstərir ki, Nizaminin ədəbi irsi o qədər geniş və hərtərəflidir ki, Şərq xalqları şairlərinin böyük bir nəsli ondan poetik sənətkarlığı öyrənmişdir.*

*Həmçinin, X-XII əsrlərdə Gəncədən olan ərəb dilində yazan şairÖmər Osman oğlu Gənci haqqında da geniş məlumat verilir. Bəzi mənbələrdə Ömər Osman oğlu Gənci Nizami Gəncəvinin dayısı kimi təqdim edirlər. Məqalədə, Misir alimi prof. M.Həsəneynin, ərəb tədqiqatçısı Məhəmməd Quneymi Hilalın Nizami Gəncəvi haqqında yazdıqları kitablar haqqında məlumat verilir.*

*Açar sözlər*: Nizami Gəncəvi, Şərq ədəbiyyatı, "Xəmsə", poetik-fəlsəfi fikir, ədəbi irs

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi dünya ədəbiyyatı xəzinəsinə yüksək dəyəri olan əsərlər vermiş Azərbaycan şairi və bəşəriyyətin bədii fikir salnaməsində öz sözünü demiş nadir şəxsiyyətlərdəndir. Nizaminin parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaratmışdır. Buna baxmayaraq onun Yaxın və Orta Şərqdə öz fəlsəfi-ictimai və bədii-estetik düşüncəsi ilə şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır və çox sayda olan davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Professor Y.E.Bertels çox haqlı olaraq qeyd edir ki, əgər təkcə Nizamini təqliq edən yazıçıların adlarını saymaq istəsək, "o zaman biz yaxın Şərq xalqlarının ədəbiyyatlarının bütün tarixini şərh etməli olardıq". Doğrudan da, Şərq xalqlarının ədəbiyyatı uzun əsrlərdən bəri Nizaminin yaradıcılığının böyük təsirini hiss etmişdir. Şərqin ən böyük şairləri Nizamidən poetik sənətkarlığın sirlərini öyrənmiş, onun "Xəmsə"sindən mövzular seçib götürmüş, şairin əsərlərindəki poetik obrazlardan, təşbih və istiarələrdən, yazıçının fəlsəfi fikirlərindən geniş surətdə istifadə etmişlər. Bu isə göstərir ki, Nizaminin ədəbi irsi o qədər geniş və hərtərəflidir ki, Şərq xalqları şairlərinin böyük bir nəsli ondan poetik sənətkarlığı öyrənmişdir [1, 8].

Nizami Gəncəvi intibah dövrü Azərbaycan və Şərq lirikasının, epik poemaların qüdrətli yaradıcısıdır. Dahi şairin "Sirlər xəzinəsi" (1174), "Xosrov və Şirin" (1180), "Leyli və Məcnun" (1188), "Yeddi gözəl" (1197) və "İsgəndərnamə" (1203) poemaları "Xəmsə" adı ilə tanınan möhtəşəm Beşlik poemalar dəstidir. Nizami Gəncəvinin "Xəmsə" – Beşlik poemalar dəsti Azərbaycan poeziyasının və ümumiyyətlə ədəbiyyatımızın zirvəsi olmaqla bərabər, Şərq və Qərb ədəbiyyatının inkişafına da qüvvətli təsir göstərmiş ölməz sənət şedevrləridir.

Hindistanda Əmir Xosrov Dəhləvi (XIII əsr) və Mərkəzi Asiyada Əbdürrəhman Cami (XV əsr), Özbəkistanda Əlişir Nəvai (XV əsr) Nizami Gəncəvinin mövzuları və ideyaları əsasında "Xəmsə" adlandırılan Beşlik poemalar yaratmışlar [2, 13].

Məlumdur ki, Nizami "Xəmsə" poemalarının başlanğıcında Allaha, Peyğəmbərə, Hökmdara və İnsana ünvanlanmış qəsidələr yazıb və elə bu ünvanların özü onun dünya görüşünün, fəlsəfi və sırf insani düşüncələrinin mündəricatını tamam aşkar edir. O, Quranı dərindən mənimsəmişdi, Həzrət Peyğəmbərin hədislərinin fəlsəfi məzmununa dərindən varmışdı və Nizaminin Hökmdar əməllərinə, İnsan əxlaq və mənəviyyatına münasibətinin əsasında da həyatın, yaşayışın, ümumiyyətlə, kainatın məna və məzmunu ilə bağlı ali dəyərlər dayanırdı. Qeyd etdiyimiz kimi, filoloqların, şərqşünasların, tarixçilərin tədqiqatları göstərir ki, Cami, Dəhləvi, Nəvai, Marağayi, Hatifi, Behişti və başqaları kimi böyük sənətkarlar öz "Xəmsə"lərini məhz Nizaminin "Xəmsə"sindən ruhlanaraq, təsirlənərək yaratmışlar. Arif Ərdəbili, Həqiqi, Ağqoyunlu Zəmiri, Nakam kimi Azərbaycan şairləri ilə bərabər, Hilali, Nami, Vəhsi Kirmani, Vüsal Şirazi, Əbdibəy Şirazi, Ruhul Əmin kimi görkəmli fars şairləri, özbək ədəbiyyatının Xarəzmli Qütb, Xarəzmi Süheyli, yaxud türkmən ədəbiyyatının Əndəlib kimi nümayəndələri ayrı -ayrı əsərlərini Nizami mövzuların da yazmışlar [3, 7**]**.

Ərəb mənbələrində Gəncə şəhəri haqqında da dəyərli məlumatlar verilmişdir. Böyük alim əs-Səməani Əl-Ənsab "(Nəsəblər) kitabında yazır: "əl-Cənzi Azərbaycanın məşhur şəhərlərindən biri Cənzəyə (Gəncəyə) mənsubdur". O, Gəncəyə mənsub olan alimlərdən bir neçəsinin adını qeyd edərək onlar haqqında fikirlərini yazır. Bunlardan İbrahim ibn Məhəmməd əl-Cənzi, Abu Hafs Ömər ibn Osman ibn Şueyb əl-Cənzini misal göstərmək olar. "Taudihu əl-Muştəbəh" (Şübhələrin aydınlaşdırılması) kitabında belə yazılır: "əl-Cənzi, Cənzəyə mənsubdur, o, elə Gəncədir". Eyni kitabın başqa bir səhifəsində "əl-Cənzəvi Cənzəyə (Gəncə) mənsubdur" deyilir.

XIII-XIV əsrlərdə yaşamış coğrafiyaşünas alim əl-Qəzvini "Əsar ül-biləd və əxbər ül-ibəd" əsərində Azərbaycanın Gəncə şəhərindən söhbət açarkən yazır ki, Cənzə (Gəncə) gürcülərə yaxın, müsəlmanların yaşadıqları yenilməz, qədim, aran şəhərlərindən biridir, bolluq şəhəridir, xalqı dindar və xeyirxahdır. Xalqın əksəriyyəti silahdan istifadə edə bilir və s. O, Nizami Gəncəvidən söhbət açaraq deyir: "Dahi və müdrik şair Əbu Məhəmməd Nizami bu şəhərdəndir". Qəzvini Əbu Məhəmməd Nizaminin "Xosrov və Şirin", "Leyli və Məcnun", "Sirlər xəzinəsi" və "Yeddi gözəl" kimi əsərlərinin olduğunu, "Xosrov və Şirin" əsərində, dini nəsihətlərdən, hikmətli kəlamlardan, atalar sözlərindən və gözəl hekayələrdən çox istifadə etdiyini yazır. O, bu əsərin səlcuqilər şahı Toğrul Ruslan oğlu üçün yazıldığı və sultanın da şeir və şairlərə diqqət yetirdiyi üçün Nizamiyə böyük hörmət qazandırdığını, insanlar arasında nüsxələri yayılaraq onu məşhurlaşdırdığını bildirir. "Leyli və Məcnun" əsərini isə Şirvan şahının istəyi ilə onun üçün yazdığını və bu əsərin analoqu olmadığını vurğulayır. Dahi şairin hicri tarixi ilə təqribən 590-cı (1194) ildə vəfat etdiyini qeyd edir [4].

Burada yeri gəlmişkən X-XII əsrlərdə Azərbaycanda ərəb dilində yazan şairlər "Əbu Hafs" künyəsi ilə tanınan Ömər Osman oğlu Gəncidir ki, onun haqqında L.Orucova və Z.Şıxalibəyli yazırlar ki, bir çoxları güman edirlər ki, Ömər ibn Osman əl-Cənzi Nizami Gəncəvinin dayısı olmuşdur. Azərbaycan ədəbiyyatşünaslıq elmində bu haqda ilk məlumat İmamverdi Həmidova məxsusdur. Alim "Şair Gənci" məqaləsində Əbul-Kərim əs-Səmaninin (1113-1167), Yaqut əl-Haməvinin, İzzəd-Din ibn əl-Əsirin (XII-XIII əsrlər), Muhammәd əz-Zəbidinin təzkirələri əsasında bu az tanınmış şair haqqında məlumat vermişdir. Gəncinin Bağdad, Nişapur, Həmədan, Mərv kimi elm mərkəzlərində olduğunu, Bağdadda Əbu Müzəffər əl-Əbivərdinin, Həmədanda Əbdur-Rəhman əd-Duninin yanında oxuduğunu, 70-80 yaşlarında Mərvdə vəfat etdiyini göstərmişdir. Şairin ədəbi irsindən bizə ancaq 26 beytdən ibarət şeir parçaları gəlib çatıb və bu şeir parçalarının əsas mövzusunu vətən həsrəti, dostları

ilə bağlı düşüncələri təşkil edir[5, 118]. Əs-Səmani Əbu Həfs Öməri fəzilət sahibi, dindar, xoş rəftarlı bir şəxsiyyət kimi oxucularına təqdim edir. Bağdadda qaldığı müddətdə böyük alimlərlə dostlaşaraq onlardan elm öyrənmşdir. Əbu Həfs Ömər ədəb elminin sirlərini dərindən mənimsəmək niyyəti ilə Bağdaddan sonra Həmədanda da bu alimin yanında təhsilini davam etdirmişdir. Sərxəsdə Əbu Həfslə görüşən əs-Səmani onun özündən eşitdiyi şeirlərindən parçalar yazmışdır.Yaqut əl-Həməviyə görə Əbu Həfs Bağdadda təhsil aldıqdan sonra vətəni Gəncəyə dönmüş, sonra isə ikinci dəfə Bağdada qayıtmışdır. Mərvdə onunla görüşən Yaqut əl-Həməvi “Kitab əl-Ənsab”da olmayan bəzi məlumatı özünün “Mucəm əl-üdəba” əsərində açıqlayır. Onun ölüm tarixini göstərən əs-Səmaninin məlumatına əlavə olaraq Yaqut əl-Həməvi Əbu Həfsin yetmiş yaşında vəfat etməsini yazır. Bundan başqa əl-Cənzi haqqında aşağıdakı ifadələr də ona mənsubdur: “...Ömər əl-Cənzi iti ağlı ilə seçilir... Allah qarşısında çox mömin idi...bir çox əsərlər yazmış, özünün şərhini diqtə etməyə başlamışdı, əgər bunu tamamlasaydı, misli olmazdı... o məni vəsf etmişdi (ənşədəni)” və s. Ömər əl-Cənzi Nişapurda Nizamülmülkün oğlu Fəxrülmülkün (v.e.1106-cı ildə) uşaqlarına dərs demişdi [6, 257].

Müdrik şair Nizaminin hələ sağlığında Yaxın Şərq xalqları onun əsərlərinin ümumibəşəri əhəmiyyətini dərk etmişdilər. Çünki bu yaradıcılıq Şərq bədii və ictimai fikrinə mühüm təsir göstərmişdir. Nizami irsinin ərəb ədəbiyyatşünaslığında öyrənilməsi hər zaman tədqiq olunurdu, XX yüzillikdə isə xüsusilə məhsuldar olmuşdur.

Misir alimi prof. M.Həsəneynin "Nizami əl-Kəncəvi şairul-fadiləti. Asruhu va biətuhu va şiruhu" ("Fəzilət şairi Nizami Gəncəvi. Dövrü, mühiti və poeziyası") əsəri ərəb nizamişünaslığında yeni bir hadisə hesab etmək olar. Müəllif Nizami irsinin öyrənilməsi haqqında məlumat verir, onun dövrü və mühitinin ictimai-siyasi durumundan bəhs edir. O, dövrün xüsusiyyətlərini iki aspektdə təqdim edir: 1) siyasi, ictimai, ədəbi və dini baxımdan; 2) şairin boya-başa çatdığı Gəncə mühiti və ailəsi ilə bağlılığı baxımından. Həsəneynin ilkin mənbələrə əsasən verdiyi məlumatlardan aydın olur ki, mətin iradəli insanların yaşadığı mühitdə böyüyüb tərbiyələnmiş Nizami əsərlərində əxilərin xarakterindəki əməksevərlik ruhundan təsirlənmiş, zülmə və zalimə boyun əyməməyi təbliğ etmişdir. Şairin əsərlərində aşılanan zəhmətə dəvət ruhu həmin təsirin nəticəsi kimi başa düşülməlidir.

Professor M.Həsəneyn Nizaminin islam dini tərbiyəsi ruhunda böyüdüyünü, çağında mövcud olan dini-əxlaqi fikirlərin çevrəsində yaşadığını göstərir. Şair düşüncələr aləmində olmağa üstünlük vermiş, Allahı sevən bir insan kimi könül və qəlb aləmini dərk etməyə çalışmışdır. Həqiqətən, Nizaminin əsərlərindən aydın olur ki, onun düşüncələri ağıl və qəlb süzgəcindən keçmişdir. Şair islam dininin idrak təliminə əsaslanır, eyni zamanda Aristoteli öyrənir. Həsəneyn haqlı olaraq, Nizamini "fəzilət şairi" adlandırmışdır. O, böyük şair və mütəfəkkiri "möhkəm əxlaqlı" ("zu xulqin qavimin"), "hətta rəqiblərinə qarşı dözümlü bir insan" ("mutəsamihun hatta maə adaihi"), ailədə vəfalı ər və qayğıkeş ata kimi oxuculara tanıdır.

Ərəb tədqiqatçıları arasında Məhəmməd Quneymi Hilal ədəbiyyatların müqayisəli öyrənilməsi baxımından ilk dəfə olaraq Nizami Gəncəvinin yaradıcılığı haqqında fikir söyləmişdir. O, müqayisəli ədəbiyyatşünaslıq sahəsində əsaslı tədqiqatlar aparmış, Şərq və Qərb dünyasında ədəbi-estetik fikirlərin qarşılıqlı əlaqəsi məsələsinə dair dəyərli işlər görmüşdür. Alimin bu sahədəki fəaliyyəti "Müqayisəli ədəbiyyat" ("Əl-ədəbul-muqarənu") əsəri ilə yanaşı, "Üzrilik və sufilik arasında sentimental həyat" ("Əl-həyatul-atifiyyətu beynəl-uzriyyəti vassufiyyəti"), "Farsdilli şeirdən seçmələr" ("Muxtaratun minəş-şiril-farisiyyi"), "Müqayisəli ədəbi tədqiqatlarda humanizm nümunələri" ("Ən-nəmazicil-insaniyyəti fid-dirasatil-ədəbiyyətilmüqaranəti") adlı kitablarında əksini tapmışdır. Hilal Nizaminin məsnəvi

yaradıcılığında rolunu düzgün qiymətləndirərək yazır: Nizami bu sahədə xüsusi istedada və gözəl sənətə malik olmuş, məsnəvi şeirini mükəmməl bir mərhələyə çatdırmışdır [7].

Beləliklə, aydın olur ki, Şərq ədəbiyyatının görkəmli nümayəndələrinin bir çoxu Nizami Gəncəvinin irsindən bəhrələnərək, onun fəlsəfi fikirlərindən ruhlanaraq yazıb-yaratmışlar. Nizami Gəncəvi milliyyət olaraq Azərbaycan şairi olsa da, onun yaradıcılığı insanlıq ideyaları özündə təcəssüm edən ümumbəşəri şairdir.

ƏDƏBİYYAT

1. Ağayev Ə. Nizami və dünya ədəbiyyatı.-Bakı, 1964 . səh.160
2. Həbibbəyli İ. Ədəbiyyat Fatehi və əbədiyyatın fəthi. // "Ulduz", №10 (629) oktyabr, 2021
3. Elçin. Cism ilə ruhun vəhdəti. Nizami Gəncəvi haqqında söz// "Ulduz", №10 (629) oktyabr, 2021
4. Nəsirov S. Nizami Gəncəvi ərəb mənbələrində http://old.xalqqazeti.com/az/ news/culture/ 55118
5. Əlizadə Ə. Azərbaycan-ərəb ədəbi əlaqələrinin görkəmli tədqiqatçısı, kamil şərqşünas alim İmamverdi Həmidov–80// Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Poetika.izm, 2021, № 2.-səh.118
6. Əliyeva N. Azərbaycanda islam mədəniyyəti (VIIXIII). Bakı: "Elm və təhsil", 2017 - 488 səh.
7. Həmidov İ. Nizami Gəncəvi irsi ərəb alimlərinin araşdırmalarında // "Ədəbiyyat qəzeti", 2021, Xüsusi buraxılış, 09 oktyabr

УДК 82-1. 512. 162

*В.Дж.Гусейнова*
*Гянджинское отделение НАНА*
*Директор научной библиотеки*

## НАСЛЕДИЕ НИЗАМИ ГЯНДЖЕВИ В ВОСТОЧНОМ ЛИТЕРАТУРОВЕДЕНИИ
*РЕЗЮМЕ*

*Ключевые слова*: Низами Гянджеви, восточная литература, «Хамсе», поэтико-философская мысль, литературное наследие

В статье отмечается, что литература восточных народов на протяжении многих веков ощущала большое влияние творчества Низами, величайшие поэты Востока учились у Низами секретам поэтического ремесла, выбирали темы из его произведения «Хамсе», образы, метафоры из творчества поэта, а также широко использовали философские идеи писателя. Это свидетельствует о том, что литературное наследие Низами настолько широко и всеобъемлюще, что огромное поколение поэтов народов Востока учились у него поэтическому искусству.

Также даны обширные сведения об Омаре Осман оглы Гянджи – поэте, писавшем на арабском языке из Гянджи в X-XII веках. В некоторых источниках Омар Осман оглы Гянджа представлен как дядя Низами Гянджеви. В статье также приводятся сведения о книгах египетского ученого проф. М. Хасанеина и арабского исследователя Мухаммада Гунейми Хилала о Низами Гянджеви.

UDC 82-1. 512. 162

*V.J.Huseynova*
*Ganja Branch of ANAS*
*Director of the Scientific Library*

THE LEGACY OF NIZAMI GANJAVI IN EASTERN LITERARY CRITICISM
*SUMMARY*

*Key words:* Nizami Ganjavi, oriental literature, “Khamsa”, poetic and philosophical thought, literary heritage

The article notes that the literature of eastern peoples for many centuries felt the great influence of Nizami’s work, the greatest poets of the East learned from Nizami the secrets of the poetic craft, chose themes from his work “Khamse”, images, metaphors from the poet’s work, and also widely used philosophical ideas writer. This indicates that Nizami’s literary heritage is so broad and comprehensive that a huge generation of poets of the peoples of the East learned the art of poetry from him.

Extensive information is also given about Omar Osman oglu Ganja, a poet who wrote in Arabic from Ganja in the 10th-12th centuries. In some sources, Omar Osman oglu Ganja is presented as the uncle of Nizami Ganjavi. The article also provides information about the books of the Egyptian scientist prof. M. Hasanein and Arab researcher Muhammad Ghuneymi Hilal about Nizami Ganjavi.

***Daxil oldu: 05.10.2023-cü il***